# Topçubaşov Arbitraj Müsabiqəsi

# 2022
# MÜSABİQƏ İŞİ

Müəllif:
Ruslan Mirzəyev

Veb-sayt: moot.bsulawss.org
E-poçt: moot@bsulawss.org

“Supermarket” MMC tərəfindən
(Azərbaycan Respublikası,
Bakı şəhəri, Azərbaycan prospekti 1)

“Soba” LTD-yə qarşı
(Atlantida Krallığı,
Sahil şəhəri, Qərb küçəsi 15)

13 mart 2022-ci il

## ARBİTRAJ BİLDİRİŞİ

Hazırkı bildiriş ilə “Supermarket” MMC **(“İddiaçı”)** Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ Komissiyasının (UNCITRAL) Arbitraj Qaydalarına əsasən “Soba” LTD-yə **(“Cavabdeh”)** qarşı arbitraj iddiası qaldırır.

**FAKTLAR**

İddiaçı Azərbaycan Respublikasında qeydiyyatdan keçmişdir və bu ölkədə fəaliyyət göstərir. Azərbaycan Respublikası “Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında” BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasına və “Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında” 1980-ci il BMT Konvensiyasına üzvdür. Arbitraj həmçinin, “Beynəlxalq arbitraj haqqında” Azərbaycan Respublikası Qanunu ilə uyğunluq təşkil edir.

İddiaçı ilə Cavabdeh arasında 10 dekabr 2021-ci il tarixdə alqı-satqı müqaviləsi (bundan sonra “Müqavilə”) imzalanmışdır (Qoşma İ-1). Həmin Müqaviləyə əsasən Cavabdeh İddiaçını 2022-ci il ərzində 10 000 ton taxılla təmin etməli idi. Müqavilənin ümumi dəyəri 2 200 000 ABŞ dolları, taxılın 1 tonu 220 ABŞ dolları olaraq müəyyən edilmişdi. Müqavilə üzrə ilk dəfə 2022-ci ilin fevral ayında olmaqla, rübdə bir dəfə 2 500 ton taxıl təmin edilməli idi. Lakin Cavabdeh fevral ayında heç bir mal göndərməmişdir. Buna baxmayaraq, Cavabdeh 1 mart 2022-ci il tarixdə İddiaçıya bildirmişdir ki, 2 500 ton həcmində taxılı gətirən nəqliyyat şirkətinin avtomobilləri yolda qəzaya düşərək məhv olub, buna görə də həmin malın haqqı (550 000 ABŞ dolları) İddiaçı tərəfindən ödənilməlidir (Qoşma İ-2). İddiaçı belə bir absurd tələbə etiraz etmiş, Cavabdehdən taxılı dərhal göndərməyi tələb etmişdir (Qoşma İ-3). Bundan sonra, 10 mart 2022-ci il tarixində Cavabdeh İddiaçıya rəsmi məktub yazaraq 550 000 ABŞ dollarını dərhal ödəməyi tələb etmiş, həmçinin Rusiya Federasiyasına tətbiq edilmiş sanksiyalara görə artıq oradan taxıl ixrac edə bilməyəcəklərini, bu səbəbdən Müqaviləyə xitam verdiklərini bildirmişlər (Qoşma İ-4).

Cavabdeh öz öhdəliklərini pozduğuna görə İddiaçıya zərər dəymişdir. Belə ki, İddiaçı taxılı başqa ixracatçılardan 1 tonu 320 ABŞ dolları olmaqla 3 125 ton taxıl almaq məcburiyyətində qalmışdır. Nəticədə İddiaçıya 1 000 000 ABŞ dolları zərər dəymişdir. Əlavə olaraq, Müqaviləyə əsasən gecikmiş məbləğə görə ümumilikdə hər gün üçün məbləğin 1 faizi həcmində cərimə ödənməlidir.

## HÜQUQİ MƏSƏLƏLƏR VƏ TƏLƏBLƏR

Tərəflər arasında Müqavilə həm İddiaçı, həm də Cavabdeh tərəfindən imzalanmışdır.

Müqavilədə tərəflər arasında Müqavilə ilə bağlı yaranan mübahisələrin Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ Komissiyasının (UNCITRAL) Arbitraj Qaydalarına uyğun olaraq həll edilməsi nəzərdə tutulmuşdur. Bu səbəblə də hazırkı arbitraj tribunalı qeyd edilən mübahisə ilə bağlı qərar verməkdə tam səlahiyyətlidir. Əlavə olaraq, Müqavilə üzrə münasibətlərin Azərbaycan Respublikası qanunvericiliyi ilə tənzimləndiyi qeyd edilir.

Hazırkı bildiriş ilə İddiaçı aşağıdakıları tələb edir:

1. Müqavilə üzrə dəymiş real zərər olaraq 1 000 000 ABŞ dolları Cavabdeh tərəfindən İddiaçıya ödənilsin;
2. 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər Müqaviləyə əsasən gündəlik 1 faiz İddiaçıya ödənilsin;
3. 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər Azərbaycan Respublikası qanunvericiliyinə əsasən uçot faiz dərəcəsi ilə faiz İddiaçıya ödənilsin;
4. Arbitraj və hüquqşünas xərcləri Cavabdeh tərəfindən ödənilsin.

## PROSESSUAL MƏSƏLƏLƏR

İddiaçı Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ Komissiyasının (UNCITRAL) Arbitraj Qaydalarına uyğun olaraq, üç arbitrdan birini - Birinci Arbitrı təyin edir.

**“Supermarket” MMC-nin Direktoru** **Orxan Muradov**

*İ-Qoşma 1*

## MÜQAVİLƏ

Bu Müqavilədə bir tərəfdən Azərbaycan Respublikası qanunvericiliyi və öz nizamnaməsi əsasında fəaliyyət göstərən, Direktoru Orxan Muradov şəxsində "Supermarket" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Alıcı" adlanacaq), digər tərəfdən Atlantida Krallığının qanunvericiliyinə uyğun qeydiyyatdan keçən və fəaliyyət göstərən, Direktoru Con Bonds şəxsində "Soba" LTD şirkətinin Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş və fəaliyyət göstərən, hüquqi ünvanı Sahil şəhəri, Qərb küçəsi 15 olan filialı (bundan sonra "Satıcı" adlanacaq) 10 dekabr 2021-ci il tarixində Bakı şəhərində bağlanmışdır.

### 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. Müqavilə üzrə Satıcı 2 200 000 ABŞ dolları dəyərində Atlantida Krallığı istehsalı olan, 10 000 ton taxılı (bundan sonra "Mallar") Alıcıya təhvil verməyi, Alıcı isə Satıcının həmin Mallarını təhvil alıb haqqını ödəməyi öhdəsinə götürür.

1.2. Alıcı Satıcıdan sifariş etdiyi miqdarda Malların dəyərinin ödənilməsi vəzifəsini üzərinə götürür.

### 2. MALLARIN TƏSVİRİ VƏ TƏHVİL-TƏSLİMİ

2.1. Mallar istifadə edildiyi məqsədlərə uyğun keyfiyyətdə və qaydada Alıcıya təhvil verməlidir.

2.2. Yararlılıq müddəti keçdikdən sonra Satıcı həmin malların keyfiyyəti və ya vurduqları zərərə görə məsuliyyət daşımır. Əgər Malların üzərində konkret yararlılıq müddəti göstərilməmişdirsə, Mallar ağlabatan müddət üçün yararlı olmalıdır.

2.3. Əgər Alıcı Malları aldıqdan sonra 1 (bir) gün ərzində bildiriş verməzsə, Malları olduğu kimi qəbul etdiyi hesab edilir.

### 3. ÖDƏNİŞ ŞƏRTLƏRİ

3.1. Mallar Alıcıya təhvil verildikdən sonra 1 (bir) iş günü ərzində Alıcı Malların dəyərini Satıcının baş ofisi olan və Atlantida Krallığında fəaliyyət göstərən Soba LTD şirkətinin Atlant Bank IBAN 0000020202002020 hesabına ödəməlidir.

### 4. MÜQAVİLƏNİN İCRASI

4.1. Müqaviləni yüksək peşəkar standartlara uyğun icra etməlidir. Satıcı öz hüquqi öhdəliklərinin, xüsusilə də əmək, vergi və sosial qanunvericilikdən irəli gələn öhdəliklərin icrasına görə tam məsuliyyət daşıyır.

4.2. Satıcı ona həvalə olunmuş tapşırıqları yerinə yetirən işçi heyətinə görə tam məsuliyyət daşıyır.

4.3. Hər gecikdirilmiş öhdəliyin hər günü üçün öhdəliyin dəyərinin 1 faizi həcmində cərimə ödənməlidir.

## 5. MƏXFİLİK

5.1. Hər bir tərəf Müqavilənin icrası ilə bağlı hər hansı bir məlumatı və ya sənədləri ciddi məxfilik şəraitində saxlamağı və üçüncü şəxslərin istifadəsinə verməməyi və ya üçüncü tərəfə açıqlamamağı öhdəliyinə götürür. Bu öhdəlik Müqavilə üzrə tapşırıqlar yerinə yetirildikdən sonra, Müqavilə qüvvədən düşdükdən və ya ona xitam verildikdən sonra 5 il müddətində qüvvədə qalacaqdır.

5.2. Əksi barədə digər Tərəfin əvvəlcədən yazılı razılıq verməsi halı istisna olmaqla, hər hansı Tərəfin əldə etdiyi məlumatın Müqavilə müddəti ərzində Müqavilənin icrasından başqa məqsədlər üçün tətbiqi qadağandır.

## 6. FORS-MAJOR

6.1. Fors-major qismində Müqavilə Tərəflərinin əvvəlcədən gözləmədiyi, Müqavilə üzrə öhdəliklərin icrasına mane olan, hər hansı bir tərəfin və ya tərəflərin subpodratçılarının yanlışlığı və ya ehtiyatsızlığı səbəbindən meydana gəlməyən, qarşısı məntiqi üsullarla alına bilinməyən müstəsna vəziyyət, nəzarətdən kənara çıxan hadisələr nəzərdə tutulur. Avadanlıqda və ya materialda qüsurlar və ya gecikmələr, əmək mübahisələri, tətillər və ya maliyyə problemlər onların birbaşa fors-major halından irəli gəlməsi halları istisna olmaqla fors-major hesab olunmur.

6.2. Tərəflərinin hər hansı biri fors-major ilə üzləşdikdə digər tərəfə dərhal rəsmi şəkildə (qəbulunu təsdiqləyən formada) fors-majorun halının nədən ibarət olması, ehtimal olunan davam etmə dövrü və proqnozlaşdırılan təsiri haqqında təfsilatlı məlumat təqdim edir.

6.3. Müqavilənin tərəfləri zərəri minimal səviyyəyə salmaq üçün zəruri tədbirləri görməlidirlər.

## 7. TƏTBİQ EDİLƏN HÜQUQ VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

7.1. Müqavilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

7.2. Tərəflər arasında Müqavilənin, o cümlədən Müqavilə üzrə Alıcının öhdəliklərinin təminatı olaraq bağlanmış müqavilə və Müqavilənin icrası ilə bağlı bağlanmış hər hansı digər əqdin bağlanması, etibarlılığı, şərhi və ya icrası ilə bağlı yaranan bütün mübahisələr Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ Komissiyasının (UNCITRAL) Arbitraj Qaydalarına uyğun olaraq Bakı şəhərində keçirilən arbitrajla həll olunur.

## 8. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

8.1. Müqavilədə nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməməsi və ya lazım olan şəkildə yerinə yetirilməməsi hallarında təqsirli tərəf Azərbaycan Respublikasının qüvvədə olan mülki qanunvericiliyinə müvafiq olaraq zərərçəkmiş tərəfə öhdəliklərin yerinə yetirilməməsi nəticəsində vurulmuş maddi və ya mənəvi zərəri ödəməlidir.

## 9. MÜQAVİLƏYƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏRİN EDİLMƏSİ

9.1. Müqaviləyə bütün əlavə və dəyişikliklər yalnız tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər.

9.2. Müqaviləyə edilən əlavə və dəyişikliklər onun ayrılmaz hissəsi sayılan yazılı Əlavə razılaşmalarla rəsmiləşdirilir.

## 10. MÜQAVİLƏNİN MÜDDƏTİ VƏ MÜQAVİLƏYƏ XİTAM VERİLMƏSİ

10.1. Alıcı Müqaviləni əhəmiyyətli şəkildə pozarsa, Satıcı heç bir bildiriş vermədən dərhal qüvvəyə minməklə Müqaviləyə xitam verərək Malları geri tələb edə bilər.

10.2. Müqavilənin ləğv edilməsi Tərəfləri ləğvetmə anınadək Müqavilə üzrə yerinə yetirməli olduqları öhdəliklərin icrasından azad etmir.

10.3. Müqavilənin bir və ya bir neçə müddəasının etibarsızlığı onun qalan hissələrinin etibarsızlığına səbəb olmur.

10.4. Müqavilə hər 2 Tərəf tərəfindən imzalandığı tarixdən qüvvəyə minir. Müqavilə iki nüsxədən ibarətdir, tərəflərin hər birində bir nüsxə qalmaq şərti ilə tərəflər arasında imzalanmışdır.

**Alıcı**

“Supermarket” MMC______________________Orxan Muradov

**Satıcı**

“Soba” LTD şirkətinin Azərbaycan Respublikasındakı filialı__________________Con Bonds

### *İ-Qoşma 2*

### Elektron poçt

Kimdən: john.bonds@soba.ltd
Kimə: orxan.muradov@supermarket.az
Mövzu: Qəza barədə məlumat və ödəniş tələbi
Tarix: 1 mart 2022

Salam,

Təəssüflə bildirmək istəyirik ki, aramızda bağlanmış 10 dekabr 2021-ci il tarixli alqı-satqı müqaviləsinə əsasən Sizə təqdim edilmiş mallar (2 500 ton taxıl) 20 fevral 2022-ci il tarixində qəza nəticəsində tam məhv olmuşdur. Müqaviləyə əsasən mallar nəqliyyat şirkətinə təqdim edildikdən sonra onlara görə məsuliyyəti Alıcı daşıyır. Bunu nəzərə alaraq xahiş edirik ki, Sizə təqdim edilmiş 2 500 ton buğda üçün ödənilməli olan 550 000 ABŞ dolları vəsaiti Müqaviləyə uyğun olaraq 5 iş günü ərzində ödəyəsiniz.

Hörmətlə,

Con

## *İ-Qoşma 3*

## Elektron poçt

Kimdən: orxan.muradov@supermarket.az
Kimə: john.bonds@soba.ltd
Mövzu: Qəza barədə məlumat və ödəniş tələbi
Tarix: 5 mart 2022

Salam,

Qəzanın baş verməsinə görə təəssüf edirik. Lakin Sizin müraciətinizi təəccüblə qarşılayırıq. Belə ki, Müqaviləyə əsasən Siz malları bizə təhvil verməmisiniz. Bizə təhvil vermədiyiniz mallara görə hansı əsasla ödəniş tələb edə bilərsiniz?

Biz Malları heç bir nəqliyyat şirkətinə təhvil verməmişik. Nəqliyyat şirkətini Siz seçib haqqını ödəyərək cəlb etmisiniz. Buna görə biz necə məsuliyyət daşıya bilərik? Əgər hər hansı tələbiniz varsa, nəqliyyat şirkətinə müraciət edə bilərsiniz.

Xahiş edirik, mümkün ən qısa müddət ərzində taxılı bizə təqdim edəsiniz. Əks təqdirdə dəbbə pulu hesablamağa başlayacağıq.

Hörmətlə,

Orxan

***İ-Qoşma 4***

**Xitam bildirişi**

Orxan Muradov
"Supermarket" MMC
Azərbaycan Respublikası,
Bakı şəhəri, Azərbaycan prospekti 1

Hörmətli Orxan müəllim,

Təəssüflə bildirmək istəyirik ki, aramızda bağlanmış 10 dekabr 2021-ci il tarixli alqı-satqı müqaviləsinə üzrə öhdəliklərimizi icra etməyimiz mümkün deyildir. Belə ki, bildiyiniz kimi, bizim Sizə təqdim etməyi nəzərdə tutduğumuz taxılların Rusiya Federasiyasından ixrac etməyi nəzərdə tuturduq. Lakin 6 mart 2022-ci il tarixində Atlantida Krallığı Rusiya Federasiyasına qarşı sanksiyalar tətbiq etmiş, ora edilən bütün ödənişləri qadağan etmişdir.

Bu səbəblə də qanunvericiliyin tələbinə əməl etmək məqsədilə Malları Sizə təqdim edə bilməyəcəyik və Müqaviləyə hazırkı bildirişlə dərhal xitam veririk.

Əlavə olaraq, xahiş edirik, Sizə təqdim edilmiş 2 500 ton buğda üçün ödənilməli olan 550 000 ABŞ dolları vəsaiti ən qısa müddət ərzində ödəyəsiniz.

Hörmətlə,

Con

"Soba" LTD tərəfindən
(Atlantida Krallığı, Sahil şəhəri,
Qərb küçəsi 15)

"Supermarket" MMC-yə qarşı
(Azərbaycan Respublikası, Bakı şəhəri,
Azərbaycan prospekti 1)

15 mart 2022-ci il

**Arbitraj bildirişinə cavab**

Cavabdeh bildirir ki, arbitraj tribunalının hazırkı mübahisəyə baxmağa səlahiyyəti yoxdur. Belə ki, qeyd edilən mübahisəyə arbitrajda baxılmasına müvafiq ölkələrin qanunvericiliyinə görə icazə verilmir və arbitrajdan əvvəl İddiaçı ilk öncə mediasiyaya müraciət etməli idi. Hətta belə arbitraj sazişi mövcud və etibarlı olmuş olsa da, Cavabdehin əməliyyatları sanksiyalara məruz qaldığından Müqaviləyə onun tərəfindən düzgün xitam verilmiş, əksinə İddiaçının Cavabdehə borcu qalmışdır.

**FAKTLAR**

Cavabdeh Atlantida Krallığında qeydiyyatdan keçmişdir və fəaliyyət göstərir. Atlantida Krallığı "Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında" BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasına və "Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında" 1980-ci il BMT Konvensiyasına üzvdür. Krallıqda "Arbitraj haqqında" Qanun qüvvədədir və "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikası Qanununa uyğunluq təşkil edir.

İddiaçı ilə Cavabdeh arasında 10 dekabr 2021-ci il tarixdə alqı-satqı müqaviləsi imzalanmışdır. Müqavilə imzalanarkən tərəflərin niyyəti ondan ibarət olmuşdur ki, Cavabdeh Rusiya Federasiyasından 10 000 ton taxıl alaraq İddiaçıya təqdim edəcək. Tərəflər arasında Müqavilə imzalandıqdan təxminən 2 ay sonra sonra Cavabdeh malların ilk rüblük hissəsini İddiaçıya göndərmişdir. Lakin yolda qəza baş vermiş və mallar məhv olmuşdur. Bu hadisə yolda baş verdiyi üçün ona görə məsuliyyəti Cavabdeh deyil, İddiaçı daşıyır. Bu barədə, yəni 550 000 ABŞ dolları dəyərində ödənişin edilməsi üçün İddiaçıya məlumat verilsə də (Qoşma İ-2), o, bu Mallar üçün ödənişi etməmişdir.

Daha sonra Atlantida Rusiyaya sanksiyalar tətbiq edilmiş, Rusiyaya istənilən köçürmələr qadağan edilmişdir (Qoşma C-1). Bundan sonra, bütün dünyada taxılın qiyməti 200 ABŞ dollarından 300 ABŞ dollarına qalxmış, buna görə də Cavabdeh fors-major vəziyyətlə üzləşmiş və Müqaviləyə xitam vermişdir (Qoşma İ-4).

Cavabdeh İddiaçıya qarşı Atlantida Krallığında iddia qaldırmış, məhkəmə İddiaçının etirazına baxmayaraq, həmin mübahisəni icraata qəbul etmişdir (Qoşma C-3).

**HÜQUQİ MƏSƏLƏLƏR VƏ TƏLƏBLƏR**

Ümumilikdə Atlantida və Rusiya Federasiyasının qanunvericiliyinə əsasən sanksiya ilə bağlı mübahisələrə arbitrajda baxıla bilməz. Atlantida Krallığının Mülki Prosessual Məcəlləsinin müvafiq maddəsini nəzərinizə çatdırırıq (Qoşma C-2). Buna uyğun olaraq, Cavabdeh İddiaçıya qarşı Atlantida

Krallığında iddia qaldırmış, məhkəmə İddiaçının etirazına baxmayaraq, həmin mübahisəni icraata qəbul etmişdir (Qoşma C-3). Bu səbəbdən hazırkı iş üzrə arbitraj tribunalının səlahiyyəti yoxdur. Əks təqdirdə arbitraj tribunalının qərarı Atlantida Krallığının müvafiq məhkəməsinin qərarı ilə ziddiyyət təşkil edəcəkdir.

Əlavə olaraq arbitrajın yeri Azərbaycan Respublikası olduğundan iddiaçı arbitraja müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak etməli idi. İddiaçı ilkin mediasiya sessiyasında iştirak etmədiyinə görə hazırkı arbitraj işinə xitam verilməlidir.

Hətta arbitraj tribunalının səlahiyyəti olsa belə, İddiaçının iddiası təmin edilməməlidir. Rusiya Federasiyasına tətbiq edilən sanksiyalar bizim oradan taxıl ixrac etməyimizi qeyri-mümkün etmişdir. Belə ki, tətbiq edilən sanksiyalara əsasən Rusiya Federasiyasına heç bir ödəniş etmək mümkün deyildir (Qoşma C-1). Əlavə olaraq taxılın topdan satış dəyəri hər ton üçün 200 ABŞ dollar 300 ABŞ dollarına yüksəldiyindən digər ölkələrdən də taxıl alıb, Azərbaycana idxal etmək bizim üçün qeyri-mümkündür.

Qeyd edilənləri nəzərə alaraq bildiririk ki, əgər arbitraj tribunalı səlahiyyətinin olması və Cavabdehin İddiaçıya ödəməli olduğu hər hansı vəsaitin olması qənaətinə gələrsə, bu zaman həmin vəsaitdən 550 000 ABŞ dolları çıxılmalıdır. Belə ki, Müqaviləyə əsasən Cavabdeh öz öhdəliklərini icra edib malı Cavabdehə göndərmişdir, sonradan isə qəza baş vermişdir. Müqaviləyə əsasən bu hala görə Cavabdeh məsuliyyət daşıyır və bu vəsait İddiaçıya hər bir halda ödənməlidir. Lakin Cavabdeh heç bir müqavilə öhdəliyini pozmadığı üçün həmin vəsaitin üzərinə faiz hesablanmamalıdır. Əlavə olaraq, gündəlik 1 faiz dəbbə pulu qeyri-mütənasib şəkildə yüksəkdir.

Yuxarıdakıları nəzərə alaraq Cavabdeh arbitraj tribunalından xahiş edir ki, aşağıdakılarla bağlı qərar qəbul etsin:

1. Arbitraj tribunalının hazırkı mübahisəyə baxmağa səlahiyyəti yoxdur və mübahisəyə məhkəmələrdə baxılmalıdır;
2. Lakin arbitraj tribunalı mübahisəyə baxmaq barədə səlahiyyətinin olması nəticəsinə gələrsə, müəyyən edilsin ki, Cavabdeh tərəfindən heç bir öhdəlik pozulmamışdır;
3. Əgər arbitraj tribunalı mübahisəyə baxmaq barədə səlahiyyətinin olması qənaətinə gələrsə, Cavabdehə ödənilməli məbləğ iddia məbləğindən çıxıldıqdan sonra yerdə qalan məbləğin üzərinə heç bir faiz və dəbbə pulu gəlinmədən ödənməsi qət edilsin.

**PROSESSUAL MƏSƏLƏLƏR**

Cavabdeh arbitraj tribunalının səlahiyyətinin olmaması qənaətində olsa da, hazırkı mərhələdə İkinci Arbitrı arbitr olaraq təyin edir.

**“Soba” LTD-nin direktoru** **Con Bonds**

***C-Qoşma 1***

***Atlantida Krallığında Rusiya Federasiyasına qarşı sanksiyaların tətbiq edilməsi barədə qanundan çıxarış***

1. Ukraynanın Rusiya Federasiyası tərəfindən işğalı ilə bağlı aşağıdakı əməliyyatlar qadağan edilir və bu qadağanı pozan Atlantida Krallığının vətəndaşları, həmçinin hüquqi şəxsləri qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır:

1.14. Rusiya Federasiyasında fəaliyyət göstərən istənilən kommersiya hüquqi şəxsi ilə müqavilə imzalamaq, oradan mal ixrac etmək və ya ona ödəniş etmək;

1.15. Rusiya Federasiyasında fəaliyyət göstərən istənilən banklardakı hesablara ödəniş etmək.

Hazırkı Qanun 6 mart 2022-ci il tarixdən qüvvəyə minir.

***C-Qoşma 2***

***Atlantida Krallığında arbitrajda baxıla bilməyən mübahisələr barədə Mülki Prosessual Məcəlləsinin müvafiq maddəsi***

522. Aşağıdakı mübahisələr arbitrajda həll edilə bilməz:

(i) Atlantida Krallığının ərazisində yerləşən daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqları ilə bağlı yaranan mübahisələr;

(ii) Atlantida Krallığının yaşayan fiziki şəxslər və ya qeydiyyata alınmış hüquqi şəxslər barəsində müflisləşmə və iflas;

(iii) Cinayət və inzibati hüquq məsələləri də daxil olmaqla, publik hüquq məsələləri;

(iv) Ailə hüququ üzrə məsələlər;

(v) Şəxsin hüquqi vəziyyəti;

(vi) Əmək mübahisələri;

(vii) Ətraf mühitə təsir göstərən məsələlər;

(viii) Vərəsəlik;

(ix) Əqli mülkiyyət hüquqları üzrə mülkiyyət və bu hüquqların qeydiyyatı üzrə yaranan mübahisələr;

(x) Atlantida Krallığının digər ölkələrə tətbiq etdiyi sanksiyalara əməl edən fiziki və hüquqi şəxslərə qarşı həmin sanksiyalar ilə bağlı yaranan iddialar üzrə mübahisələr;

(xi) Rəqabət hüququ məsələləri.

***C-Qoşma 3***

Atlantida Krallığı adından

**QƏRARDAD**

**SAHİL KOMMERSİYA MƏHKƏMƏSİ**

Sahil şəhəri İş № 2-1(84)-111/2022 10.03.2022

Hakim Əliyev Əflatun Əjdər oğlunun sədrliyi ilə,
Əlibabayev Əmir Cəmil oğlunun katibliyi ilə,
İddiaçı Soba LTD-nin direktoru Con Bondsun, cavabdeh Supermarket MMC-nin vəkili Derek Smitin iştirakı ilə açıq məhkəmə iclasında baxaraq

**MÜƏYYƏN ETDİ:**

İddiaçı bildirmişdir ki, Tərəflər arasında 10 dekabr 2021-ci il tarixdə alqı-satqı müqaviləsi imzalanmışdır. Tərəflər arasında Müqavilə imzalandıqdan təxminən 2 ay sonra sonra İddiaçı malların ilk rüblük hissəsini Cavabdehə göndərmişdir. Lakin yolda qəza baş vermiş və mallar məhv olmuşdur. Bu hadisə yolda baş verdiyi üçün ona görə məsuliyyəti İddiaçı deyil, Cavabdeh daşıyır. Bu barədə, yəni 550 000 ABŞ dolları dəyərində ödənişin edilməsi üçün Cavabdehə məlumat verilsə də, o bu mallar üçün ödənişi etməmişdir. Bu səbəblə də İddiaçı Sahil Kommersiya Məhkəməsinə müraciət etmişdir.

Cavabdehin nümayəndəsi işin arbitrajda baxılmalı olduğunu bildirmiş, bununla bağlı vəsatət vermişdir. O əsaslandırmışdır ki, Müqavilədə tərəflər arasında Müqavilə ilə bağlı yaranan mübahisələrin Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ Komissiyasının (UNCITRAL) Arbitraj Qaydalarına uyğun olaraq Bakı şəhərində həll edilməsini nəzərdə tutmuşdur. Cavabdehin nümayəndəsi “Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında” BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasının 2-ci maddəsinə və “Beynəlxalq arbitraj haqqında” Qanunun 8-ci maddəsinə əsasən məhkəmədən işi baxılmamış saxlamağı xahiş etmişdir.

İddiaçı isə bildirmişdir ki, mübahisə Atlantida Krallığının Rusiyaya tətbiq etdiyi sanksiyalarla bağlı yaranır, bu səbəblə də işə xarici arbitrajda baxıla bilməz.

......

......

......

Atlantida Krallığının Mülki Prosessual Məcəlləsinin 522-ci maddəsinə əsasən “Atlantida Krallığının digər ölkələrə tətbiq etdiyi sanksiyalara əməl edən fiziki və hüquqi şəxslərə qarşı həmin sanksiyalar ilə bağlı yaranan iddialar üzrə mübahisələrə” arbitrajda baxıla bilməz. Əgər işə arbitrajda baxıla bilməzsə, işin arbitraja yönəldilməsinə “Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında” BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasının 2-ci maddəsinə, nə də

"Beynəlxalq arbitraj haqqında" Qanunun 8-ci maddəsinə əsasən tələb edilə bilər. Əlavə olaraq, belə qərar gələcəkdə icra üçün Atlantida Krallığına gəldikdə də Konvensiyanın 5-ci və Qanunun isə 36-cı maddəsinə əsasən tanınma və icrasından imtina olunacaqdır.

Şərh olunanlara əsasən və Atlantida Krallığının Mülki Prosessual Məcəlləsinin 522-ci maddəsini rəhbər tutaraq, məhkəmə

**QƏRARA ALDI**

İddiaçı "Soba" LTD şirkətinin vəsatəti təmin edilməsin.

Qərardaddan surəti təqdim olunduğu vaxtdan 10 gün müddətində apellyasiya şikayəti verilə bilər.

**Hakim: Əflatun Əliyev**